Əyyub Qiyas

# SONUNCU BÜT

*(roman)*

qanun nəşriyyatı

Roman 28 il həbsxana həyatı yaşayan quşbaz Məmmədağanın həyatından bəhs edir. O, azadlığa çıxandan sonra saxta jurnalist kimliyi ilə Şuşaya gedir və orada qətlə yetirilir...

1992-ci ildə işğal olunan Şuşa da məhz 28 ildən sonra – 2020-ci ildə azad edildi.

Bu bir təsadüfdürmü?

Müəllifin 2000-2006-cı illərdə qələmə aldığı əsər ilk dəfə 2007-ci ildə çapdan çıxıb.

**Əyyub Qiyas (Qi Or El)     SONUNCU BÜT**
Bakı, Qanun Nəşriyyatı, 2024, 232 səh.

Yaş qrupu: 16+
Janr: psixoloji-dram
Ölçü: 125x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 01.10.2024

Naşir: Şahbaz Xuduoğlu
Redaktor: Sevda Bəxtiyar
Korrektor: Əyyar Tahir
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Günay Seyidli
Qapaq dizaynı: Orxan Əyyuboğlu

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-577-48-8

© Əyyub Qiyas, 2024
© Qanun Nəşriyyatı, 2007; 2024

*Əzizlərim Elvüsala, Qiyasa,*
*Orxana və Elbrusa ithaf edirəm*

**…bircə qağayılar yuvasız olur,**
**bir də qağayısifət insanlar.**
**bəlkə də…**
**bəlkə də bu səbəbdən**
**qağayılar da xoşbəxt olur,**
**qağayısifət insanlar da…**

# PROLOQ

Dəniz ağzını açıb udmağa adam axtarırdı. Qocalar deyirdi ki, dəniz əjdahaya dönüb hamını udacaq…

Televizorda göstərmişdilər ki, hansısa vilayətdə dəniz doğrudan da əjdahaya dönüb və adamları udub…

Qəzetlərdə yazırdılar ki, kosmosdan çəkilən şəkillərdə dənizin adamları udduğu anda suyun üzündə dalğalar "ALLAH" sözü yazıbmış…

Sonra bütün qəzetlər bu şəkilləri çap edib adamların ixtiyarına buraxmışdı.

Sonra dəniz yenidən quzuya dönüb susmuşdu, dalğalar aram-aram yırğalanmağa davam eləmişdi… Elə bil, bu dəniz o dəniz deyilmiş.

Adamlar deyirdi ki, Allah istəsə dənizi hər an əjdahaya döndərə bilər…

* * *

Köhnə qəbiristanın köhnə kişilərindən olan qoca gorqazan yenə əlindəki külünglə gilli torpağı dəlib gor qazırdı. Qoca buralarda, bu cansız başdaşılarının arasında olan yeganə Adəm övladı idi. Qoca gorqazan arabir qəbiristanın yastı yerinə baxıb, köks ötürürdü. Kişi orada özünə xudmani bir yer seçmişdi, ancaq elə bil ürəyi narahat idi o yerə görə, elə bil kimsə həmin yeri onun əlindən alacaqdı…

Qoca bu qorxunu yaşadıqca tez ölmək istəyirdi, amma ölümünü düşünəndə alnının tərini silib, səmaya baxırdı. Belə vaxtlarda qoca sanki, başının üstündə üçan saysız-hesabsız ruhu görürdü, yaşamaq istəyirdi… Ölməkdən qorxurdu…

* * *

İyirmi səkkiz il Bakının və köhnə ittifaqın müxtəlif həbsxanalarında cəza çəkəndən sonra Məmmədağa ilk dəfə idi, taksiyə minib dəyişən, tamam başqalaşan

şəhərin küçələrini keçərək, bir vaxtlar yaşadığı məhəlləyə tələsirdi…

Amma həbsxanadan çıxıb, birbaşa evə getməyə ürək eləmədi Məmmədağa, iyirmi səkkiz ili bağlı qapılar arxasında keçirib, bir anın içində azadlığa qovuşmaq, üç-dörd qapını keçib divarlarsız bir dünyaya çatmaq yuxu kimi gəlirdi ona, buna görə bu yuxudan oyanmaq üçün dəyişən, başqalaşan dünyanın üstündə bir az gəzmək istəyirdi Məmmədağa.

* * *

Rüfət dənizkənarı parkdan çıxıb asta-asta evə sarı gedirdi, nə üçünsə köhnə qəbiristanın yanından keçəndə dayandı, boy-boya verən qəbirlərə baxdı, sonra gözünün ucu ilə qoca gorqazanı axtardı, uzaqda qaraltısı görsənən kişinin hərəkətlərindən tanıdı onu. Alnını qəbiristanın məhəccərli hasarına dirəyib, dəmirin soyuğunu alnına çəkdi və uzaqlarda əyilib-duran (məlum məsələ idi ki, gorqazan), torpağı yumşaldan kişiyə tamaşa elədi, ürəyində gorqazan olmağı arzuladı, gorqazana paxıllığı tutdu…

## MƏMMƏDAĞANIN TÜRMƏDƏN QAYITMAĞI və SÜPÜRGƏÇİ QIZBACININ HƏLƏ DƏ SAĞ QALMAĞI

Köhnə daş binanın tinində üz-üzə gəldilər, bir anlıq ayaq saxlayıb, bir-birinə baxdılar, başları ilə salamlaşdılar, sonra bir-iki addım atdılar birlikdə, tini burulub həyətə döndülər. Rüfət bir söz demədən alaqapıdan içəri girdi, Məmmədağa isə qapının ağzında ayaq saxlayıb siqaret alışdırdı, onunla qarşılaşan adamın kimliyini xatırlamağa çalışdı. Tanışdan tanış sifətin sahibi hər kim idisə onunla bağlı Məmmədağanın yaddaş kitabında nəsə olmalıydı, amma, nə?

Səhərin alatoranında gözləri əvvəlcə iyirmi səkkiz il qabaq qoyub getdiyi quş damını axtardı. Quş damı yox idi, illərin ixtisarına düşmüşdü və onun bir vaxtlar durduğu yerdə indi son vaxtların dəbi ilə tikilən, şüşələri güzgü kimi işıldayan “SUPER MARKET” ucalırdı. Məmmədağa təzə tikiliyə (amma mağazanı iki ildən çox idi işlədirdilər) müştəri gözü ilə baxan-

dan sonra ağlından keçən ilk fikir bu oldu: “Nə ola, Allahın altında adamın bu boyda bir quş damı ola və dünyanın ən bərkgedən quşlarını da yığasan bu quş damına. Nə isə…”

Məhəllə o məhəllə deyildi, ağacları da, skamyaları da, yelləncəkləri də dəyişmişdi məhəllənin və Məmmədağa üçün ötən illərin xatirəsindən qopa biləcək bircə detal belə qalmamışdı, təkcə bayaq onunla rastlaşan adamdan başqa.

Məmmədağa bir vaxtlar böyüdüyü məhəlləyə qərib-qərib baxırdı və baxışlarının seyretmə dərəcəsi böyüdükcə, onun dərdi də böyüyürdü. Onların uşaqlıqda futbol oynadıqları meydançanı hasara alıb, maşınlar üçün dayanacaq etmişdilər və yəqin, bu məhəllənin uşaqları daha futbol da oynamırdılar. Həyətdəki “TİR”in yerində isə tərəvəz köşkü qoyulmuşdu. Bir sözlə, Məmmədağanın böyüyüb, boya-başa çatdığı həyət köhnə libasını dəyişib, təzə dona girmişdi və nədənsə Məmmədağaya elə gəldi ki, bu təzəliyin, bu müasirliyin arxasında bir məkr, bir qara niyyət durur, yoxsa keçmişi birdəfəlik yaddaşlardan silmək, bir nişanə belə saxlamamaq boş yerə olmazdı.

Gözləri ilə məhəlləni gəzməkdə davam etdi və birdən köhnə kinoteatrın yerindəki şadlıq sarayının həyətini süpürən qarını görəndə, əməllicə sevindi. Qarını tanımışdı, alatoranda siluetini görmüşdü və bu siluetin əvəzsiz elementi olan uzun burun onun illərdən bəri

qoruyub saxlaya bildiyi tarixi pasport da sayıla bilərdi. Hamı bu süpürgəçi qadını hələ o vaxtdan "Qarğaburun Qızbacı" deyib, çağırardı və Məmmədağa qadına diqqətlə baxanda gördü ki, illər bu qadının nəinki burnunu, elə özünü də qarğaya oxşadıb. Qarının əyninə keçirdiyi nimdaş, qara fəhlə xalatı da qara qarğanın rəng simvolu sayıla bilərdi.

Bəli, bu, Qızbacı qarı idi, o Qızbacı ki, hər səhər iş gününü qarğışla açar, işinin sonunu qarğışla da bitirərdi.

Məmmədağa fikirləşəndə birdən çaşıb qaldı, ona elə gəldi ki, Qızbacı iyirmi səkkiz ildir elə oradaca durub, heykəlləşib, bütləşib. Və tale onu Məmmədağanın xatirələrə köklənən yaddaşı üçün qoruyub saxlayıb. Əgər Qızbacı tərpənməsəydi, bir yerdən başqa yerə keçməsəydi, Məmmədağa elə də düşünəcəkdi. Sanki Qızbacı illərdən bəri bir yeri, bir nöqtəni süpürməyə çalışırdı, amma istədiyini süpürüb qurtara bilmirdi.

Hiss etdi ki, Qızbacını gördüyü üçün, onun sağ-salamat qaldığı üçün uşaq kimi sevinir.

Məmmədağa çəkib qurtardığı siqareti yerə tulladı və tez yenidən gözləri ilə Qızbacını axtardı. Asta addımlarla qarıya tərəf getdi, bir-iki addım aralıda durub, bir də yaddaşını dəqiqləşdirməkdən üçün qarıya baxdı, o idi.

– Sabahız xeyir…

Qızbacı başını qaldırmadan, işini saxlamadan dilləndi:

– Abatuz xeyir, beşi də üstündə…

– Sağ ol… – Bunu Məmmədağa pıçıltı ilə dedi, ancaq Qızbacı eşitdi bu pıçıltını. İşinə ara verdi, süpürgənin dəstəyinə söykənib Məmmədağanı ayaqdan başa qədər süzdü.

– Təzə "upravdom" sənsən?

Məmmədağa gülümsəyib geriyə, onun quş damının yerində tikilən, şüşələri güzgü kimi parıldayan mağazaya sarı boylandı. Günəş binaların arxasından bir boy da qalxmışdı. Məmmədağa gözlərini qıyıb, bir xeyli sakit dayandı, sonra nə fikirləşdisə yenidən çevrilib Qızbacı ilə üz-üzə durdu, qarının əlindəki süpürgənin dəstəyinə baxıb gülə-gülə oxudu:

***"Qızbacı, ay Qızbacı!***
***Dili zəhər, özü acı!"***

Qızbacı nə təhər çaşıb qaldısa, az qala söykəndiyi süpürgənin dəstəyi əlindən çıxacaqdı, qarı səndirlədi, özünü yıxılmaqdan birtəhər saxladı. Qıyıq gözlərini bir az da qıydı, Məmmədağanı bir də süzdü. Qarının xatirələri alt-üst olmuşdu və bu anlarda sanki, bir nataraz traktor qarının beyninin içini haray-həşir sala-sala şumlayırdı. O mahnını ki, Məmmədağa oxumuşdu, həmən mahnının son sədaları azından iyirmi-iyirmi beş ilin o biri üzündə qalmışdı və səhərin alatoranında